# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyun tarixli 120 nömrəli Qərarı ilə təsdiq edilmiş "Koronavirus pandemiyası dövründə Naxçıvan Muxtar Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydaları"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 22 aprel tarixli 171 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyun tarixli 120 nömrəli Qərarı ilə təsdiq edilmiş "Koronavirus pandemiyası dövründə Naxçıvan Muxtar Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.3. Hava limanı ərazisində və uçuş zamanı tibbi maskalardan istifadə tövsiyə edilir.";

1.2. 3.3-cü, 9.2-ci və 9.9-cu bəndlər ləğv edilsin;

1.3. 5.2-ci bənddən ", həmçinin tibbi maskası olmayan sərnişinlərə maska təqdim edilir" sözləri çıxarılsın;

1.4. 6.2-ci bənddən "tibbi maskalardan istifadə," sözləri çıxarılsın.

2. Bu Qərar 2022-ci il 1 may tarixindən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, "26" aprel 2022-ci il

№ 107